«Dövlət qeydiyyatına alınmışdır»
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində

Hüquqi Şəxslərin Dövlət
Qeydiyyatı İdarəsinin rəisi

_______________ F.Məmmədov

«Təsdiq edilmişdir»

«TÜRK İŞ ADAMLARI DƏRNƏYİ»
İctimai Birliyinin
Təsisçilərinin Ümumi Yığıncağının
17.04.2004-cü il tarixli qərarı ilə

Ümumi Yığıncağın sədri

_________________ «İsr Azeri Apart & Business Centre» MMM

vitse prezident – Zafer Tangil

# *«AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ»*
# *İctimai Birliyinin*

# *N İ Z A M N A M Ə S İ*

***(Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1370 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə 04.04.2002-ci il tarixdə dövlət qeydiyyatına alınmış «TÜRK İŞ ADAMLARI DƏRNƏYİ» İctimai Birliyinin hüquq varisidir)***

Bakı şəhəri 2004-cü il

## *«AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ»*
## *İctimai Birliyinin*

## *N İ Z A M N A M Ə S İ*

### *I. İCTİMAİ BİRLİYİN ADI*

İctimai Birliyin adı: «AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ» İctimai Birliyi (bundan sonra «Birlik» adlanacaq).

### *II. BİRLİYİN OLDUĞU YER*

Birliyin hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Tiflis prospekti, 3, Natavan İş Mərkəzi, ofis N:453.

### *III. BİRLİYİN TƏSİSÇİLƏRİ*

Birliyin təsisçiləri: Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 21.10.1998-ci il tarixli 10 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə dövlət qeydiyyatından keçmiş «Koçbank Azərbaycan Limited» QTSB, 15.12.1999-cu il tarixli 819 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə dövlət qeydiyyatından keçmiş «Aze Başkan Fındık Sənaye Ltd» MMM, 26.05.1997-ci il tarixli 115 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə dövlət qeydiyyatından keçmiş Türkiyənin «Imısk» Ticarət və Nəqliyyat Anonim Şirkətinin «İmisk Bakı» filialı, 30.03.2001-ci il tarixli 688 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə dövlət qeydiyyatından keçmiş «Petoil Petrol və Petrol Ürünleri Uluslararası Arama və İşletme Şirketi»nin Azərbaycan Respublikasındakı filialı və 09.07.1998-ci il tarixli 556N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə dövlət qeydiyyatından keçmiş «Azər Mega Response Ltd» müəssisəsidir.

### *IV. ÜMUMİ MÜDDƏALAR*

4.1. «AZƏRBAYCAN-TÜRKİYƏ İŞ ADAMLARI BİRLİYİ» İctimai Birliyi «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ hüquqi aktlarına əsasən yaradılır.

4.2. Birlik Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 1370 N:li «Dövlət qeydiyyatı haqqında şəhadətnamə»si ilə 04.04.2002-ci il tarixdə dövlət qeydiyyatına alınmış «Türk İş Adamları Dərnəyi» İctimai Birliyinin hüquq varisidir.

4.3. Birlik Azərbaycan Respublikasının qanunlarına müvafiq qaydada yaradılan, təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-kommersiya təşkilatıdır.

4.4. Birlik daimi əsaslarla yaradılır, onun fəaliyyəti Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir və Azərbaycan Respublikasının qanunlarına müvafiq qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs hesab edilir.

4.5. Birliyin təsisçilərinin (iştirakçılarının) ictimai Birliyə verdikləri əmlak Birliyin mülkiyyətidir. Birlik həmin əmlakdan yalnız bu nizamnamə ilə müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

4.6. Birliyin iştirakçıları Birliyin öhdəlikləri üçün, Birlik isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır.

4.7. Birliyin mülkiyyətində ayrıca əmlakı vardır (daşınar və daşınmaz), oz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və cavabdeh olmaq və qanunla qadağan olunmayan nizamnamə fəaliyyətini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik olmaq və vəzifələr daşımaq hüququ vardır. Birlik müstəqil balansa, girdə möhürə, künc ştampına, bank hesablarına və digər rekvizitlərə malikdir.

4.8. Birlik sahibkarlıq fəaliyyəti ilə yalnız qarşısına qoyulmuş məqsədlərə nail olmaq üçün məşğul ola, bu fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada və ya onlarda iştirak edə bilər.

## *V. BİRLİYİN İŞTİRAKÇILARI*

5.1. Birliyin iştirakçılarına təsisçilər, fəxri sədrlər, fəxri üzvlər, üzvlər və köməkçilər aiddir.

5.2. Birliyin təsisçiləri Türkiyə Cumhuriyyətinin hüquqi və fiziki şəxsləri tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yaradılmış və fəaliyyət göstərən Azərbaycan Respublikasının hüquqi şəxsləridir.

5.3. İctimai Birliyin fəxri sədri və üzvləri Birliyin İdarə Heyətinin qərarı ilə fəxri sədr və üzv statusu verilən hüquqi və (və ya) fiziki şəxslərdir.

5.4. Birliyin üzvlüyünə aşağıdakı hüquqi və fiziki şəxslər qəbul oluna bilərlər:

- Türkiyə Cumhuriyyətinin və (və ya) Azərbaycan Respublikasının hüquqi və (və ya) fiziki şəxsləri tərəfindən yaradılmış, tamamilə xarici investisiyalı müəssisələr, birgə müəssisələr, filial və nümayəndəliklər, onların təsisçiləri, səhmdarları, nəzarət və icra orqanlarının üzvləri;
- Birliyin İdarə Heyətinin qərarı ilə müəyyənləşdirilən digər şəxslər;

5.5. Birliyin köməkçiləri İdarə Heyətinin qərarı ilə müəyyənləşdirilən şəxslərdir.

## *VI. BİRLİYİN ÜZVLÜYÜNƏ QƏBUL OLUNMA VƏ ONDAN ÇIXMANIN ŞƏRTLƏRİ VƏ QAYDASI*

6.1. Birliyin üzvlüyünə qəbul olunma və üzvlükdən çıxma barədə qərar Birliyin İdarə Heyətinin iclasında qəbul edilir.

6.2. Birliyin üzvlüyünə qəbul olunmaq və ya üzvlükdən könüllü surətdə çıxmaq istəyən şəxs ərizə və ona əlavə olunmuş sənədlərlə, Birliyin katibliyinə müraciət etməlidir. Ərizə katiblik tərəfindən onun təqdim olunma tarixi göstərilməklə Birliyin ərizə və müraciətlər kitabına daxil edilir və sonrakı hərəkətlərin yerinə yetirilməsi üçün Birliyin İdarə Heyətinin Sədrinin təsdiq etdiyi əsasnamə əsasında fəaliyyət göstərən müvafiq daxili struktur bölməsinə (komitə, komissiya) göndərilir. Birliyin üzvlüyünə qəbul olunma və ondan çıxmanın, Birliyin üzvlüyündən çıxarılma haqqında qərardan şikayət verilməsinin daxili prosedurları, üzvlərin uçotu və intizamına nəzarət qaydaları, həmçinin üzvlüyə qəbul olunmaq üçün təqdim olunan ərizənin forması Birliyin İdarə Heyəti tərəfindən təsdiq edilmiş Birliyin müvafiq daxili struktur bölməsinin Əsasnaməsi ilə müəyyənləşdirilir.

6.3. Ərizə bu Nizamnamənin 6.2. maddəsinin tələblərinə riayət edilməklə təqdim olunmadıqda Birliyin katibliyi ərizəni qəbul etməkdən imtina edə bilər. Birliyin üzvlüyünə qəbul olunmaq istəyən şəxs yol verdiyi nöqsanları aradan qaldırdıqdan sonra ümumi qaydada ərizə ilə Birliyin katibilyinə müraciət edə bilər.

6.4. Birliyin üzvlüyünə aşağıdakı hallarda xitam verilir:

- Birliyin üzvündən üzvlükdən çıxması haqqında ərizəsi daxil olduqda;
- Birliyin üzvü olan hüquqi şəxs ləğv edildikdə;
- Birliyin üzvü fiziki şəxs vəfat etdikdə;
- Birliyin üzvlüyündən çıxarılma haqqında İdarə Heyəti tərəfindən qərar qəbul edildikdə.

6.5. Birliyin üzvlüyündən çıxarılmanın əsasları aşağıdakılardır:

- Birliyin üzvü Birliyin Nizamnaməsinə riayət etmədikdə;
- Birliyin üzvü üzvlük haqqını Birliyin İdarə Heyətinin qərarı ilə müəyyənləşdirilən müddətdə və qaydada ödəmədikdə;
- Birliyin üzvü Birliyin mənafelərinə xələl gətirən hərəkətlərə yol verdikdə.

6.7. Birliyin üzvlüyündən çıxarılma haqqında qərar İdarə Heyətinin iclasında qəbul edilir və həmin qərardan Birliyin Ali İdarəetmə Orqanına və məhkəməyə şikayət verilə bilər.

## *VII. BİRLİYİN FƏALİYYƏTİNİN MƏQSƏDLƏRİ*

Azərbaycan Respublikasının ərazisində və xaricdə Birliyin fəaliyyət məqsədlərinə aşağıdakılar daxildir:

- Azərbaycanda fəaliyyət göstərən Birliyin üzvlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı hüquqlarının həyata keçirilməsinə kömək etmək;
- Azərbaycanda fəaliyyət göstərən Birlik üzvlərini təmsil etmək;
- Birlik üzvlərinin ümumi mənafelərini qorumaq və ümumi məqsədlərin əldə edilməsinə çalışmaq;
- Sərmayə qoyuluşunu artırmaq üçün Azərbaycanı Türkiyə və digər xarici ölkələrdə tanıtmaq;
- Azərbaycan və Türkiyə şirkətləri arasında sənaye, ticarət və digər iqtisadi münasibətləri inkişaf etdirmək;
- Azərbaycan və Türkiyə arasında işgüzar, ictimai və mədəni əlaqələrin hərtərəfli inkişafı üçün çalışmaq;
- Birliyin məqsədlərinə uyğun olan ictimai yığıncaqlar təşkil etmək;
- Birliyin məqsədlərinə uyğun olan və Azərbaycan Respublikasının qanunları ilə qadağan edilməyən fəaliyyətləri həyata keçirmək;
- Azərbaycan Respublikasında və xarici ölkələrdə Birliyin məqsədlərinə uyğun fəaliyyət göstərən ictimai birliklər, fondlar və digər təşkilatlarla sazişlər imzalamaq, birgə fəaliyyət göstərmək və əməkdaşlıq etmək;
- Birlik siyasi fəaliyyət göstərmir və siyasi hadisələrə müdaxilə etmir. Birlik Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş qaydada qanunvericiliyin təkmilləşdirilməsi haqqında əlaqədar orqanlara təkliflər verə bilər.

## *VIII. BİRLİYİN İDARƏOLUNMA QAYDASI*

Birliyin orqanları aşağıdakılardır:

- Ümumi Yığıncaq;
- İdarə Heyəti;
- Təftiş Komissiyası.

### *8.1. ÜMUMİ YIĞINCAQ*

8.1.1. Birliyin Ali İdarəemə Orqanı Ümumi Yığıncaqdır.

8.1.2. Ümumi Yığıncağın iclasları növbəti və növbədənkənar ola bilər.

8.1.3. Ümumi Yığıncağın növbəti iclasları ildə bir dəfədən az olmayaraq müvafiq təqvim ili başa çatdıqdan sonra üç aydan gec olmayan müddətdə İdarə Heyəti tərəfindən çağırılmalıdır.

8.1.4. Ümumi Yığıncağın iclaslarının keçirilmə yeri, tarixi, vaxtı və iclasın gündəliyi barədə məlumatlar iclasın çağırılma tarixindən ən azı iki həftə əvvəl təsisçilərə və üzvlərə göndərilən (təqdim olunan) yazılı bildirişdə göstərilməlidir. İclasın keçirilmə yeri, tarixi, vaxtı və iclasın gündəliyində

baş vermiş dəyişikliklər barədə məlumatlar İdarə Heyəti tərəfindən üzvlərə iclasın çağırılma tarixindən ən azı iki gün əvvəl təsisçilərə və üzvlərə göndərilən (təqdim olunan) yazılı bildirişdə göstərilir.

8.1.5. Ümumi Yığıncağın növbədənkənar (fövqəladə) iclasları Birliyin maraqları tələb etdikdə İdarə Heyəti tərəfindən bu nizamnamənin 8.1.4. yarımbəndi ilə müəyyənləşdirilən qaydalara riayət edilmədən dərhal çağırılır.

8.1.6. Ümumi Yığıncağın iclası Birliyin üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətli sayılır.

8.1.7. Ümumi Yığıncağın iclasında hər bir üzv bir səsə malik olmaqla, qərarlar yığıncaqda iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul edilir.

8.1.8. Səslərin sayı bərabər bölünərsə, Ümumi Yığıncağın sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir.

8.1.9. Ümumi Yığıncaq yalnız Birlik üzvlərinin yarısından çoxu iştirak etdikdə Nizamnaməyə dəyişikliklər edə bilər.

8.1.10. Ümumi Yığıncağa üzvlərin səs çoxluğu ilə seçilən sədr sədrlik edir.

8.1.11. Ümumi Yığıncağın iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Ümumi Yığıncağın sədri və katibi tərəfindən imzalanır, Birliyin girdə möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır. Lazım gəldikdə Ümumi Yığıncağın protokolu bütün üzvlərə paylanmalıdır.

8.1.12. Ümumi Yığıncağın səlahiyyətinə aşağıdakı məsələlərin həlli aiddir:

- Birliyin nizamnaməsinin qəbulu və ona əlavə və dəyişikliklər edilməsi;
- Birliyin əmlakının formalaşma və istifadə prinsiplərinin müəyyən edilməsi;
- Birliyin icra orqanlarının yaradılması və onların səlahiyyətlərinin vaxtından əvvəl dayandırılması;
- Birliyin illik hesabatının təsdiq edilməsi;
- Birliyin başqa təşkilatlarda iştirakı;
- Birliyin yenidən təşkili və ləğv edilməsi;
- Birliyin təftiş komissiyasını seçmək;
- Birliyin icra orqanları tərəfindən qəbul olunmuş qeyri-qanuni və Birliyin maraqlarına zidd qərarı ləğv etmək və yeni qərar qəbul etmək;
- Birliyin xalis aktivlərinin dəyərinin 25%-dən artıq məbləğdə olan xüsusi əhəmiyyətli əqdlərin bağlanmasını təsdiq etmək.

8.1.13. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən Birliyin icra orqanlarına verilə bilməz.

### *8.2. BİRLİYİN İDARƏ HEYƏTİ*

8.2.1. Birliyin fəaliyyətinə cari rəhbərliyi Ümumi Yığıncağa hesabat verən və onun kollegial icra orqanı olan İdarə Heyəti tərəfindən həyata keçirilir.

8.2.2. İdarə Heyəti tək sayda olmaqla azı üç fiziki və (və ya) hüquqi şəxsin

qanuni təmsilçilərindən ibarət olur.

8.2.3. İdarə Heyətinin üzvləri Ümumi Yığıncağın iclasında Birliyin üzvləri sırasından iki ildən az üç ildən çox olmayan müddətə seçilir (təyin edilir). İdarə Heyətinin sədri iki dəfədən artıq təkrarən seçilə (təyin edilə) bilməz.

8.2.4. İdarə Heyətinin sədri Ümumi Yığıncaq tərəfindən İdarə Heyətinin üzvləri arasından seçilir.

8.2.5. İdarə Heyətinin üzvləri öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.

8.2.6. İdarə Heyətinin iclasları növbəti və ya növbədənkənar ola bilər.

8.2.7. İdarə Heyətinin növbəti iclasları ayda bir dəfə keçirilir. İdarə Heyətinin iclaslarının keçirilmə yeri, tarixi və vaxtı İdarə Heyətinin keçirdiyi birinci iclasında müəyyənləşdirilir və həmin məlumatlar iclasın protokolunda göstərilir. İclasın keçirilmə yeri, tarixi və vaxtında baş vermiş dəyişikliklər və iclasın gündəliyi barədə məlumatlar İdarə Heyətinin sədri tərəfindən üzvlərə iclasın çağırılma tarixindən ən azı iki gün əvvəl göndərilən (təqdim olunan) yazılı bildirişdə göstərilir. İdarə Heyətinin birinci iclası onun tərkibi formalaşdırıldıqdan sonra beş gündən gec olmayan müddətdə çağırılmalıdır.

8.2.8. İdarə Heyətinin növbədənkənar (fövqəladə) iclasları Birliyin maraqları tələb etdikdə İdarə Heyətinin sədri tərəfindən dərhal çağırılır.

8.2.9. İdarə Heyətinin iclası üzvlərinin 2/3-si iştirak etdikdə səlahiyyətli sayılır.

8.2.10. İdarə Heyətinin iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, İdarə Heyətinin sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir. Səsvermə zamanı bitərəf qalmağa icazə verilmir.

8.2.11. İdarə Heyətinin iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Şuranın sədri və bütün üzvləri tərəfindən imzalanır, İctimai Birliyin girdə möhürü ilə təsdiq edilir və hər il üzrə uçotu aparılır.

8.2.12. İdarə Heyəti öz fəaliyyəti barədə Ümumi Yığıncağa hesabat verir.

8.2.13. Birliyin xalis aktivlərinin dəyərinin 25%-dən artıq məbləğdə olan xüsusi əhəmiyyətli əqdlərin bağlanması məsələsinə İdarə Heyətinin iclasında baxılmalı və qəbul olunmuş qərar təsdiq olunmaq üçün Ümumi Yığıncağın müzakirəsinə çıxarılmalıdır. Bu cür əqdlər yalnız Ümumi Yığıncağın qərarı ilə təsdiq olunduqdan sonra imzalanmalıdır. Qeyd olunan tələblərin pozulması ilə bağlanılan bütün əqdlər etibarsızdır.

8.2.14. İdarə Heyətinin səlahiyyətinə aşağıdakılar aid edilir:

- Birliyin cari fəaliyyətinə rəhbərlik edir və onun operativ idarə olunmasını həyata keçirir;
- Vəkalətnamə olmadan Birliyin adından öz səlahiyyətləri çərçivəsində çıxış edir, onu istər ölkə daxilində, istərsə də xaricdə bütün dövlət orqanlarında, ümumi və ixtisaslaşdırılmış məhkəmələrdə iddiaçı və cavabdeh qismində təmsil edir;
- Birliyin adından bütün növ (Ümumi Yığıncağın qərarının alınması tələb olunan müqavilələr istisna olmaqla) müqavilələr bağlayır, vəkalətnamələr verir (o cümlədən başqasına etibar etmək hüququ ilə), banklarda Birliyin cari və başqa bank hesablarını açır və maliyyə-

təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarını aparır;

- Birliyin icra orqanının strukturunu formalaşdırır, bununla bağlı komitələr, komissiyalar və digər daxili struktur bölmələr yaradır, onların səlahiyyət dairəsini müəyyən edir, əsasnamələrini təsdiq edir və fəaliyyətinə xitam verir;
- Birliyin daxili əmək intizamı qaydalarını, ştat vahidlərini, tərəfindən qəbul edilmiş qərarların vaxtında və lazımi qaydada icra olunmasını təmin edir;
- Birliyin əməkdaşlarının vəzifə təlimatını (əmək funksiyasını) hazırlayır və təsdiq edir;
- Birliyin işçilərini işə qəbul edib işdən azad edir, işçilərə həvəsləndirmə tədbirləri tətbiq edir və onları intizam məsuliyyətinə cəlb edir;
- Birliyin daxili fəaliyyət məsələləri üzrə qərar qəbul edir və əmrlər (sərəncamlar) verir;
- Birliyin filiallarını yaradır və nümayəndəliklərini açır;
- Birliyin fəaliyyəti ilə bağlı digər zəruri sənədlərin və təkliflərin hazırlanmasını həyata keçirir.

8.2.15. İdarə Heyətinin səlahiyyətinə Ümumi Yığıncağın bu nizamnamə ilə müəyyən edilən müstəsna səlahiyyətini təşkil etməyən bütün məsələlərin həlli aiddir.

## *8.3. BİRLİYİN TƏFTİŞ KOMİSSİYASI*

8.3.1. Birliyin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti və onun təftişini həyata keçirmək məqsədi ilə üç fiziki və (və ya) hüquqi şəxsdən ibarət Təftiş Komissiyası yaradılır.

8.3.2. Təftiş Komissiyasının üzvləri Ümumi Yığıncağın iclasında Birliyin üzvləri sırasından seçilir.

8.3.3. Təftiş Komissiyasının üzvü İdarə Heyətinin üzvü ola bilməz.

8.3.4. Təftiş Komissiyası Birliyin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət və illik hesabatlar və balanslar əsasında rəy tərtib edir. Təftiş Komissiyasının rəyi olmadan Ümumi Yığıncaq illik balansı təsdiq edə bilməz.

8.3.5. Təftiş Komissiyası Birliyin maliyyə-təsərrüfat fəaliyyətinin təftişini aşağıdakı hallarda həyata keçirir:

- təsərrüfat ili başa çatdıqda;
- Ümumi Yığıncaqnın tələbi ilə;
- Nizamnamədə nəzərdə tutulan digər hallarda.

## *IX. BİRLİYİN ƏMLAKININ FORMALAŞDIRILMA MƏNBƏLƏRİ*

9.1. Birliyin əmlakı onun təsisçilərinin (təsisçisinin) verdiyi puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan və ianələrdən, dövlət yardımından, qrantlardan və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən daxil olan haqlardan ibarət ola bilər.

9.2. Birliyin əmlakı onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o cümlədən dəyəri Birliyin müstəqil balansında əks olunan digər dəyərlərdən ibarətdir.
9.3. Birliyin əmlakı Birliyin mülkiyyətidir.
9.4. Birliyin əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:

- Birliyin təsisçilərinin və ya üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
- təsisçilərin könüllü əmlak haqları və ianələri;
- malların satılmasından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
- səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
- öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
- qrantlar;
- qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

## *X. MÜHASİBAT UÇOTU VƏ VERGİ QOYMA*

Birlik sahibkarlıq fəaliyyətindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəyir.

## *XI. ƏMƏK MÜNASİBƏTLƏRİ*

Birlikdə işçilərlə işəgötürən arasında yaranan əmək münasibətləri Azərbaycan Respublikasının Əmək Məcəlləsi və digər normativ-hüquqi aktları ilə tənzimlənir.

## *XII. SOSİAL SIĞORTA VƏ TƏMİNAT*

Birliyin işçilərinin sosial sığortası və təminatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan qaydada həyata keçirilir.

## *XIII. BİRLİYİN LƏĞVİ QAYDALARI*

13.1. Birliyin ləğvi və əmlakının müqəddəratı haqqında qərar Ümumi Yığıncağın iclasında qəbul edilir.
13.2. Birliyin ləğvinin başqa əsasları və qaydası Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ-hüquqi aktları ilə müəyyənləşdirilir.

## *XIV. DİGƏR ŞƏRTLƏR*

14.1. Birliyin fəaliyyəti ilə əlaqədar olan lakin bu Nizamnamə ilə tənzimlənməyən məsələlər Ümumi Yığıncağın qərarı və Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.
14.2. Bu Nizamnamə Birlik dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.

14.3. Bu Nizamnamə Ümumi Yığıncaqnın qərarı ilə tamamlana, tam, yaxud qismən dəyişdirilə bilər.

14.4. Nizamnamədə hər bir sonrakı dəyişiklik hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməlidir və dəyişiklik yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

14.5. Gələcəkdə bu Nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.